# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 767) ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.6-cı bəndə "alınma sözlər" sözlərindən sonra "(apellyasiya, attestasiya və akkreditasiya sözləri istisnadır)" sözləri əlavə edilsin və həmin bənddən ", apelyasiya" sözü çıxarılsın.

2. 4.10-cu bənddə "stres." sözü "stres və s." sözləri ilə əvəz edilsin.

3. 8.6-cı bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"8.6. Ali dövlət vəzifələri - Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin sədri kimi yazılır. Dövlət orqanları (qurumları), birlik, cəmiyyət, akademiya, universitet, kollec, teatr, filarmoniya, siyasi partiya, tarixi günlər və s. bu kimi mürəkkəb adların bütün sözlərinin (adına, üzrə, və, yanında, qarşı və s. bu kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli

Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Yeni Azərbaycan Partiyası, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi və s.”.

4. 8.6-cı bəndin “Qeyd”i üzrə:

4.1. 1-ci hissədə “Tərkibində” sözü “Dövlət rəmzlərinin, həmçinin tərkibində” sözləri ilə əvəz edilsin və həmin hissəyə “yazılır:” sözündən sonra “Azərbaycan Respublikasının Dövlət Himni,” sözləri əlavə edilsin;

4.2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Azərbaycan Respublikasının səhiyyə naziri, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tipli mürəkkəb adlarda sahə (səhiyyə) və vəzifə (nazir) bildirən sözlər kiçik hərflə yazılır.”.

5. 8.8-ci bəndə “dırnaqda və” sözlərindən sonra “birinci sözü” sözləri əlavə edilsin və həmin bənddə “İstiqlal” ordeni, “Azərbaycan Bayrağı” ordeni” sözləri “Vətənə xidmətə görə” ordeni, “Dövlət qulluğunda fərqlənməyə görə” medalı” sözləri ilə əvəz edilsin.

6. 9-cu hissə üzrə:

6.1. adı aşağıdakı redaksiyada verilsin:

“9. İxtisarlar (akronimlər) və qısaltmalar”;

6.2. 9.1-ci bənddə “İxtisar və qısaltmalar” sözləri “İxtisarlar (akronimlər) və qısaltmalar” sözləri ilə əvəz edilsin;

6.3. 9.1.1-ci yarımbəndə “ixtisarlar” sözündən sonra “(akronimlər)” sözü əlavə edilsin;

6.4. 9.1.3-cü yarımbənddə “böyük və” sözləri “böyük və ya” sözləri ilə və “Azərbaycan Nəşriyyatı” sözləri “Azərbaycan Dövlət Nəşriyyatı” sözləri ilə əvəz edilsin;

6.5. 9.2-ci bəndə “İxtisarlara” sözündən sonra “(akronimlərə)” sözü əlavə edilsin və həmin bənddə “UNESKO-nun, İSESKO-da” sözləri “UNESCO-nun, ISESCO-da” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 3 noyabr 2020-ci il

№ 438